**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# ÖZÜNƏQƏSD HALLARININ MƏHKƏMƏ-PSİXOLOJİ EKSPERTİZASININ ELMİ-METODİKİ VƏ TAKTİKİ-PROSESSUAL ƏSASLARI

| | |
|---|---|
| İxtisas: | 5612.01 – Cinayət prosesi, kriminalistika və məhkəmə ekspertizası; əməliyyat-axtarış fəaliyyəti |
| Elm sahəsi: | Hüquq elmləri |
| İddiaçı: | **Natiq Nurəddin oğlu Abdullayev** |

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2026**

Dissertasiya işi Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzində yerinə yetirilmişdir.

Elmi rəhbər: Hüquq elmləri doktoru
**Fərdin Yaşar oğlu Xəlilov**

Rəsmi opponentlər: Hüquq elmləri doktoru, professor
**Kamil Nazim oğlu Səlimov**

Hüquq elmləri üzrə fəlsəfə doktoru
**Orxan Kamal oğlu Yaqublu**

Hüquq elmləri üzrə fəlsəfə doktoru
**Nərgiz Mirzəli qızı Abbaszadə**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Milli Aviasiya Akademiyası nəzdində fəaliyyət göstərən ED 2.45 Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: Hüquq elmləri doktoru, professor
**Ayxan Xankişi oğlu Rüstəmzadə**

Dissertasiya şurasının elmi katibi: Hüquq elmləri üzrə fəlsəfə doktoru
**Sahil Zahir oğlu Hüseynov**

Elmi seminarın sədri: Hüquq elmləri doktoru, professor
**Midhəd Seyidəhməd oğlu Qəfərov**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycan Respublikasında demokratik, dünyəvi və hüquqi dövlətin qurulması, islahatların geniş vüsət alması, bazar münasibətlərinin inkişafı cəmiyyət həyatının müxtəlif sahələrində ciddi dəyişikliklərin baş verməsi ilə səciyyələnir. Bu dəyişikliklər məcmu halda insanların psixikasına mənfi təsir edən bir sıra neqativ sosial və iqtisadi amillərlə də müşayiət olunur. Təəssüf ki, heç də bütün insanlar həyat çətinliklərinin öhdəsindən gələ bilmir, ictimai dəyişikliklərə hazır olmur. Həyatın yeni şəraitlərinə uyğunlaşa bilməyən bəzi şəxslərdə emosional hallar onların idrak və əqli imkanlarını üstələyir. Belə vəziyyətdə onların bəziləri davranışlarının sosial-mənəvi nəticələrini dərk etməyərək yaranmış mürəkkəb və ilk baxışda "çıxılmaz" görünən vəziyyətdən ən asan çıxış yolunu özünü öldürməyə cəhddə tapırlar.

Mürəkkəb sosial-psixoloji hadisə kimi nəzərdən keçirilən özünü öldürməyə cəhd bəşəriyyətin aktual problemlərindəndir. Son illərdə bir çox ölkələrdə suisidə cəhd halları artmaqdadır. ÜST-ün məlumatlarına görə, dünyanın inkişaf etmiş əksər ölkələrində suisidə cəhd halları ilk yerlərdən birini tutur. Dünyada hər 40 saniyədə bir intihar hadisəsi baş verir. Ümumilikdə hər il 800 minə yaxın insan suisid nəticəsində həyatdan məhrum olur. Suisidə cəhd edən şəxslər arasında müxtəlif yaşa, cinsə, peşəyə, təhsil və mədəni səviyyəyə malik insanlar olur. Onların sırasında cəmiyyətə fayda gətirə biləcək, sağlam və əmək qabiliyyətli olanların sayı da çoxdur. Bu isə suisidə cəhd hallarının sosial, hüquqi, tibbi, psixoloji və digər xarakterli aktual problemlər sırasına qoyulmasını və bu fenomenin sistemli tədqiqinin zəruriliyini şərtləndirir.

Elmi araşdırmalar və statistika suisidə cəhd probleminin texniki tərəqqinin neqativ tərəfi, tənhalıq, nəsilləri bir-birinə bağlayan əlaqələrin qırılması, ailə institutunun, mənəvi, əxlaqi, milli və dini dayaqların laxlaması ilə bağlı olduğunu göstərir. Tədqiqatçılar gələcəyin qeyri-müəyyənliyini – özünüməhvə can atmanın səbəbi və ya əlaməti sırasında göstərirlər. Suisidoloqlar

özünü öldürməyə cəhdi müşayiət edən bir sıra amilləri qeyd edirlər: urbanizasiya nəticəsində ailə institutunun zəifləməsi, şəhərdə yeniyetmələrin erkən cinsi inkişafı, qadınların emansipasiyasının neqativ nəticələri, medianın şüura təsiri, habelə dini etiqadın xarakteri və ictimai həyatın bir sıra digər amilləri. İctimai-siyasi quruluş, əhalinin etnik tərkibi, mədəniyyətin inkişaf səviyyəsi ilə bir-birindən fərqlənən dünyanın bir çox ölkələri üçün bu problem kompleks preventiv tədbirlərin işlənib hazırlanması və həyata keçirilməsini tələb edən kəskin sosial-psixoloji və hüquqi problemə çevrilmişdir.

ÜST-ün 2022-ci il üzrə təqdim etdiyi özünüöldürmə səviyyəsinə görə dünya ölkələrinin reytinqində öz əksini tapmış məlumatların təhlili göstərir ki, özünəqəsdin yüksək və ən yüksək səviyyəsi Lesota (72,4), Qayana (40,3), Cənubi Koreya (28,6), Litva (26,1), Rusiya (25,1), Ukrayna (21,6), Belarus (21,2), Latviya (20,1) kimi ölkələr, özünəqəsdin orta səviyyəsi Sloveniya (19,8), Belçika (18,3), Qazaxıstan (17,6), Macarıstan (16,6), Xorvatiya (16,4), ABŞ (16,1), Yaponiya (15,3), Finlandiya (15,3), Estoniya (14,9), İsveç (147), Avstriya (14,6), İsveçrə (14,5), Fransa (13,8), Slovakiya (12,1), Kanada (11,9), Niderland (11,8), Portulaqiya (11,5), Sinqapur (11,2) kimi ölkələr, özünəqəsdin aşağı səviyyəsi isə İrlandiya (9,6), Gürcüstan (9,2), Çili (9), Pakistan (8,9), Argentina (8,4), Çin (8,0) İspaniya (7,7), Qırğızıstan (7,4), Braziliya (6,9), BƏƏ (6,4), İsrail (5,3), İran (5,2), Yunanıstan (5,1), Albaniya (4,3), Tacikistan (4,3), Azərbaycan (4,1), İraq (3,6), Kipr (3,6), Tunis (3,3), Küveyt (2,9), Peru (2,8), Əlcəzair (2,5), Türkiyə (2,4) və sair kimi ölkələr üçün xarakterikdir.

Göründüyü kimi, ÜST Azərbaycanı özünəqəsdin aşağı səviyyəsi müşahidə olunan ölkələr sırasına daxil etmişdir.

Eyni zamanda statistik rəqəmlər son illərdə Azərbaycanda intihar hallarının əhəmiyyətli dərəcədə artdığını göstərir. Belə ki, 2009-cu ildə Azərbaycanda 165 intihar halı qeydə alındığı halda, 2023-cü ildə Respublika üzrə 620 özünü öldürmə, 820 özünün öldürməyə cəhd hadisələri qeydə alınmışdır. Bu da 2009-cu illə müqayisədə 3,8 dəfə artım deməkdir. Qeyd olunan özünü öldürmə

faktlarına görə 585 hadisə üzrə material qaydasında araşdırma aparılaraq cinayət işinin başlanması rədd edilmiş, barəsində təqsirləndirilən şəxs qismində cəlb edilməsi haqqında qərar qəbul edilən 5 cinayət işinin istintaqı aparılmışdır (Abşeron, Şamaxı, Şəmkir, Cəlilabad, Neftçala). Baş vermiş 620 intihar hadisəsindən 460 nəfər kişi, 160 nəfəri isə qadın olmaqla onlardan 354 nəfəri evli, 266 nəfəri isə subay olmuşdur. 620 intihar hadisəsindən 38 nəfəri yetinlik yaşına çatmayan olmuşdur. İntihar hadisələrinin səbəbləri təhlil edilərkən 351 psixi pozuntu və ya digər xəstəliklərdən əziyyət çəkənlər, 12 maddi sıxıntı, 12 uğursuz sevgi münasibəti, 44 alkoqol və ya narkomaniyadan əziyyət çəkənlər, 26 ailədaxili münaqişə, 9 fakt isə ailə üzvlərindən və ya yaxınlarından birinin ölməsi səbəblərinə görə törədilməsi müəyyən edilmişdir. Həmçinin, 166 hadisə üzrə digər səbəblərə görə, yəni bunlara uğursuz imtahan nəticələri, yaşamaq istəməməsi, kredit borclarını ödəyə bilməməsi, öz əməlindən peşmançılıq hissi, yaxınlarının xəstəlikdən əziyyət çəkməsi, törətdiyi cinayət əməlindən sonra özünü öldürmə, boşanma, valideynlərinin tənbeh etməsi, səbəbsiz intiharlar və s. bu kimi hallar aşkar edilmişdir.

Mütəxəssislər, rəsmi statistikada öz əksini tapan rəqəmlərin əslində "daha yüksək" olduğunu qeyd edirlər, çünki intihar hadisələri adətən ailələrin açıqlamaq istəmədiyi mövzulardandır. Ölkədə kəndlərə nisbətən şəhərlərin, əsasən də Bakının intihar payı digər yerlərdən daha çoxdur.

Beləliklə, xarici ölkələrlə müqayisədə Azərbaycanda intihar səviyyəsi o qədər yüksək olmasa da, bu, hələ bizdə intiharların tək-tək hallarda baş verdiyi demək deyildir.

Elmi ədəbiyyatın təhlili problemin Respublikada kifayət qədər tədqiq olunmadığını göstərir. Odur ki, suisid və buna cəhd hallarının məhkəmə-psixoloji ekspertizasının elmi-metodiki və taktiki-prosessual əsasları üzrə elmi işlər də yox dərəcəsindədir.

Bununla belə, ölkədə suisid hallarının bəzi aspektlərinin araşdırılmasına dair az da olsa, tədqiqat aparılmışdır. Məsələn, B.S. Zahidovun müvafiq əsəri intihar fenomeninin və ona oxşar əməllərin kriminoloji, sosioloji və psixoloji problemlərinin beynəlxalq və milli səviy-

yədə kompleks tədqiqinə həsr olunmuşdur.[1] Müəlliflər kollektivi tərəfindən hazırlanmış digər vəsaitdə intihar həm sosial-psixoloji fenomen kimi, həm də cinayət hüququnun müddəaları baxımından təhlil edilmişdir.[2] B.H. Əliyev tərəfindən isə məhkəmə-psixoloji ekspertizasının elmi-nəzəri, təcrübi aspektlərinə, bu növ ekspertiza icraatının metodologiyasına, metodiki və prosessual əsaslarına doktorluq dissertasiyası həsr olunmuşdur.[3]

Bununla belə, özünəqəsd hallarının məhkəmə-psixoloji ekspertizasının elmi-metodiki və taktiki-prosessual əsasları tam və dolğun şəkildə, müasir reallıqlar, məhkəmə-istintaq və ekspert təcrübəsinin tələbatları nəzərə alınmaqla işlənilməmişdir. Bu sahədə öz həllini gözləyən, elmi-nəzəri və praktiki xarakter daşıyan problemli məsələlər sırasında özünəqəsd hallarının araşdırılmasında xüsusi psixoloji biliklərdən istifadə imkanlarının rolu və əhəmiyyətinin öyrənilməsini, özünəqəsd hallarının məhkəmə-psixoloji ekspertizasının anlayışı, predmeti, obyektləri, məqsəd və vəzifələrinin dəqiqləşdirilməsi və sistemləşdirilməsini, özünəqəsd hallarının məhkəmə-psixoloji ekspertizasının təyin edilməsi və aparılmasının taktiki və prosessual xüsusiyyətləri, özünəqəsd hallarının istintaqında kompleks ekspertizaların (psixoloji-psixiatrik, psixoloji-linqvistik və s.) təyin edilməsi və keçirilməsinin təşkilati-taktiki və prosessual aspektlərini, suisidal hallar üzrə məhkəmə-psixoloji ekspertiza rəylərinin mahiyyəti, məzmunu və strukturunu, ekspert-psixoloqun psixodiaqnostik fəaliyyətinin strukturunu və əsas mərhələlərini, özünəqəsd hallarının məhkəmə-psixoloji ekspertizasının metodlarını, ölümdən əvvəl yazılan suisidal xarakterli məktubların linqvistik-psixoloji analizinin taktiki-metodiki xüsusiyyətlərini, suisidal halların məhkəmə-psixoloji ekspertiza

---

[1] Zahidov B. İntihar (həyat və ölüm haqqında kriminoloji, sosioloji və psixoloji etüdlər). Bakı: Hüquq ədəbiyyatı, 2012.

[2] Əliyev N., Əsgərova N., Qasımova Y. İntihar və özünü öldürmə həddinə çatdırma (sosial fenomen və cinayət). Bakı: Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin mətbəəsi, 2021.

[3] Əliyev B. Cinayət və mülki prosesdə məhkəmə psixoloji ekspertizası problemləri. Psixologiya elmləri doktoru dissertasiyası. Bakı, 1998.

icraatının metodoloji problemlərini, suisidal cəhdlərin istintaqı zamanı şəxsiyyətin sosial-psixoloji xüsusiyyətlərinin ekspert qiymətləndirməsi metodikasını və digərlərini xüsusi olaraq qeyd etmək olar.

Özünəqəsd hallarının məhkəmə-psixoloji ekspertizası özünəməxsus xüsusiyyətlərlə səciyyələnir ki, bununla da bağlı məhkəmə-istintaq orqanlarında bu növ ekspertizaların təyin edilməsi, ekspert qarşısında sualların qoyulması və ekspertiza üçün materialların hazırlanması zamanı müəyyən çətinliklər yaranır.

Bu problemlərin əsas səbəblərindən biri də bu növ ekspertizanın nəzəri və metodiki təminatının lazımi səviyyədə işlənib hazırlanmamasıdır. Özünəqəsd hallarında məhkəmə-psixoloji ekspertizasının təyin edilməsi ilə bağlı müəyyən təcrübənin mövcudluğuna baxmayaraq, onların elmi əsaslandırılmasına, elmi-nəzəri və metodiki əsaslarının işlənilməsinə indiyə qədər lazımi diqqət yetirilməmişdir.

Beləliklə, təşəkkül dövründə olan özünəqəsd hallarının məhkəmə-psixoloji ekspertizası psixoloji ekspertizaların yeni, elmi-nəzəri və metodoloji əsasları hələ tam formalaşmamış növüdür və hal-hazırda bu növ ekspertiza icraatının elmi-nəzəri və metodoloji problemlərinə həsr olunmuş və monoqrafik səviyyədə həyata keçirilmiş tədqiqatlar aparılmamışdır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini özünəqəsd və buna cəhd hallarının məhkəmə-psixoloji, kompleks məhkəmə-psixoloji və məhkəmə-psixiatrik ekspertizalarının təyin edilməsi və aparılması üzrə ekspert, istintaq və məhkəmə təcrübəsi, predmetini isə bu halların məhkəmə-psixoloji ekspertizasının elmi-nəzəri, metodiki əsaslarını təşkil edən xüsusi biliklər sisteminin formalaşması və tətbiqi, bu növ məhkəmə-psixoloji ekspertiza icraatının metodologiyası ilə bağlı qanunauyğunluqlar təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi məhkəmə-psixoloji ekspertizasının və onun özünəqəsd hallarının məhkəmə-psixoloji ekspertizası kimi növünün elmi-nəzəri və metodoloji əsaslarının, predmet, obyekt, vəzifə və metodlarının

işlənib hazırlanmasından, özünəqəsd və özünəqəsdə cəhd hallarının məhkəmə-psixoloji ekspertizasının, kompleks məhkəmə psixoloji-psixiatrik və psixoloji-linqvistik ekspertizalarının təyin edilməsi və aparılması kimi bir sıra aktual məsələlərin araşdırılmasından ibarətdir.

Qeyd edilən məqsədə nail olmaq üçün tədqiqat qarşısında aşağıdakı vəzifələr qoyulmuşdur:

- müstəqil tədqiqat obyekti kimi təşəkkül və inkişaf prosesində olan məhkəmə-psixoloji ekspertizasının yaranması və inkişaf tarixinin, eləcə də müasir vəziyyətinin öyrənilməsi;
- məhkəmə-psixoloji ekspertizasının elmi əsaslı təsnifat sisteminin işlənib hazırlanması və əsaslandırılması;
- məhkəmə-psixoloji ekspertizasının ənənəvi və qeyri-ənənəvi növlərinin mahiyyət və məzmununun, səciyyəvi xüsusiyyətlərinin müəyyən edilməsi;
- özünəqəsd hallarının məhkəmə-psixoloji ekspertizasının elmi-nəzəri əsaslarının işlənib hazırlanması;
- müasir şəraitdə məhkəmə-psixoloji ekspertizasının predmeti və obyektlərinin müəyyən olunması;
- özünəqəsd hallarının məhkəmə-psixoloji ekspertizasının predmeti və obyektinin, vəzifələrinin müəyyən edilməsi, bu növ ekspertiza icraatı qarşısında qoyulması mümkün olan sualların dairəsinin dəqiqləşdirilməsi və sistemləşdirilməsi;
- özünəqəsd və özünəqəsdə cəhd hallarının məhkəmə-psixoloji ekspertizasının təyin edilməsi və aparılmasının ən mühüm, həmçinin, diskussion problemlərinin analizi və bu problemlərin həlli istiqamətlərinin müəyyən olunması;
- özünəqəsd hallarının məhkəmə-psixoloji ekspertizasının metodologiyasını təşkil edən ümumelmi və xüsusi elmi metodlar sisteminin müəyyən edilməsi və bu metodların bu növ ekspertiza icraatına münasibətdə mahiyyət və məzmununun açıqlanması;
- özünəqəsd hallarının məhkəmə-psixoloji ekspertiza icraatının metodiki təminatının işlənib hazırlanmasının perspektiv istiqamətlərinin müəyyən edilməsi;

- özünəqəsd və özünəqəsdə cəhd hallarının məhkəmə-psixoloji ekspertizasının təyin edilməsi və aparılması xüsusiyyətlərinin, təşkilati-metodiki və taktiki-prosessual aspektlərinin tədqiqi;

- özünəqəsd və özünəqəsdə cəhd hallarının kompleks məhkəmə psixoloji-psixiatrik və psixoloji-linqvistik ekspertizalarının bir sıra aktual məsələlərinin nəzərdən keçirilməsi.

**Tədqiqat metodları**. Dissertasiya tədqiqatının metodoloji əsasını idrak nəzəriyyəsinin, elmşünaslığın, məhkəmə ekspertizası nəzəriyyəsinin, cinayət-prosessual hüququn, kriminalistikanın, psixologiyanın əsas prinsipləri və müddəaları, elmi metodlar sistemi təşkil edir.

Qeyd olunanlarla yanaşı, tədqiqat predmetinin analizi zamanı istər ümumi, istərsə də xüsusi-elmi metodlardan tarixi-hüquqi, məntiqi-hüquqi, sistemli-struktur, müqayisəli analiz, kompleks, statistik, psixoloji analiz və s. istifadə edilmişdir. Özünü öldürməyə cəhdlərlə bağlı məhkəmə-psixoloji ekspertiza icraatı zamanı tədqiqatın metodoloji təminatını və metodiki əsaslarını təşkil edən testlərdən, o cümlədən xarakterin aksentuasiyasının təyini metodikası, yəni Leonqard sorğusu, sosial-psixoloji adaptasiya testi, "Adaptivlik" çoxsəviyyəli şəxsiyyət sorğusu, özünüqiymətləndirmə testi, özünə münasibətin tədqiqi metodikası, frustasiya testi, astenik (mənfi emosional hal) vəziyyətin ölçülməsi testi, proyektiv rəsm testləri ("Ailə", "Mövcud olmayan heyvan", "Ev-ağac-insan"), "Göstəricilər və aqressiya formalarının diaqnostikası metodu", həndəsi fiqurlardan insanın konstruktiv şəkli, insanın psixi vəziyyətinin fərdi tənzimlənməsinin təyini metodu, stressə dayanıqlıq və sosial adaptasiyanın müəyyən edilməsi metodikası, depressiya şkalası, mütərəqqi matrisalar, yəni "Raven" testi, Tematik apperseptiv testi (TAT), xarakterin rəngi ("Lüşer" testi); Saks və Levinin "Yarımçıq cümlələr" metodikası, Ayzenkin şəxsiyyət sorğusu (böyüklər üçün), Aaron T.Beck "Suiqəsdə meyl" şkalasından istifadə edilir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

1. İşdə özünəqəsd və özünəqəsdə cəhd hallarının məhkəmə-psixoloji ekspertizasının predmeti barədə müəllif yanaşması irəli sürülmüş və əsaslandırılmışdır. Belə ki, özünü öldürmə faktı üzrə məhkəmə-psixoloji ekspertiza icraatı zamanı psixoloji tədqiqat predmeti ilk növbədə ölümdən əvvəlki dövrdə ekspertiza obyekti olan şəxsin psixi vəziyyəti, suisidentin psixi fəaliyyəti və fərdi-psixi xüsusiyyətləri çıxış edir. Bu halda ekspert-psixoloqun vəzifələrinə özünəqəsddən əvvəl suisidentin psixi vəziyyətinin xarakteristikası, onun struktur-dinamik xüsusiyyətlərinin və tipinin, şüurunun vəziyyəti və özünəqəsddən əvvəlki dövrdə emosional halların məzmununun aydınlaşdırılması, şəxsiyyət və situasiyanın qarşılıqlı təsiri xarakterinin analizi, suisidin məqsədinin və məna-mahiyyət tipinin müəyyən edilməsi daxildir.

2. İşdə özünəqəsd və özünəqəsdə cəhd halları ilə bağlı məhkəmə-psixoloji ekspertizasının obyektləri barədə də müəllif yanaşması irəli sürülmüş və əsaslandırılmışdır. Belə ki, bu növ ekspertiza icraatının tədqiqat obyektlərini iş materiallarında əks olunmuş aşağıdakı məlumatları özündə daşıyan və iş üçün əhəmiyyət kəsb edən həlak olanın psixi fəaliyyəti, hərəkətləri, davranışı, vəziyyəti, əlaqələri, həlak olma şəraiti, ölümün səbəbləri haqqında məlumatlar, həlak olanı, onun sosial mühitini, inkişaf şəraitini, əlaqə və münasibətlərini xarakterizə edən materiallar, fərdi-psixoloji xüsusiyyətləri, dəyərlər sistemini, meyllərini, maraqlarını, yönəlişlərini açan məlumatlar və sair təşkil edir. İnformasiya mənbələri qismində həmçinin, yaxınların, qohumların, dostların, iş yoldaşlarının, hadisəni öz gözləri ilə görənlərin və başqalarının ifadələri, istintaq hərəkətlərinin protokolları, xəstəlik tarixçələri, digər tibbi sənədlər, psixoloji müayinə protokolları; fərdi-psixoloji söhbətlər, işə əlavə olunmuş ölümqabağı məktublar, işgüzar və digər xarakterli yazışmalar, gündəliklər, şəkillər, digər yaradıcılıq məhsulları və sair çıxış edə bilər.

3. Müəllif tərəfindən özünəqəsd halları üzrə məhkəmə-psixoloji ekspertizası qarşısında qoyula biləcək nümunəvi sualların

dairəsi müəyyən edilmişdir. Belə ki, məhkəmə-istintaq orqanları intihar hallarının, özünüqəsdlə bağlı olan hadisələrin araşdırılması zamanı məhkəmə-psixoloji ekspertiza təyin edərkən ekspert-psixoloq qarşısında aşağıdakı sualları qoya bilərlər: İntihar etmiş şəxsin fərdi-psixi xüsusiyyətləri hansılardır və bu xüsusiyyətlər onun özünü öldürməsində necə təzahür etmişdir? Özünü öldürmüş şəxsdə, ölümündən əvvəlki dövrdə hansı psixi-emosional hal olmuşdur və bu hal hansı amillərlə şərtlənmişdir? İntihar etmiş şəxsdə ekstremal psixi vəziyyətin (fizioloji affekt, stress, emosional gərginlik, frustasiya və s.) yaranma səbəbləri nədən ibarət olmuşdur? Təqsirləndirilən şəxsin hərəkətləri ilə (məsələn, zorlama, qəddarcasına münasibət və ya mütəmadi olaraq şəxsin ləyaqətinin alçaldılması və s.) zərərçəkmişin ölümündən əvvəlki dövrdə keçirmiş olduğu psixi-emosional hal arasında səbəbli-nəticə əlaqəsi mövcuddurmu?

4. İşdə müəllif tərəfindən özünüqəsdə cəhd hallarının məhkəmə-psixoloji ekspertizasının eksperimental-psixoloji metodlar kompleksi barədə yanaşma irəli sürülmüş və əsaslandırılmışdır. Belə ki, özünü öldürməyə cəhd işləri üzrə məhkəmə-psixoloji ekspertiza icraatının eksperimental-psixoloji metodları kompleksinə daxil edilə bilər: idrak proseslərinin, intellektin tədqiqi metodları; temperamentin və ali sinir sisteminin xassələrinin tədqiqi metodları; xarakterin, şəxsiyyətin ayrı-ayrı cəhətlərinin tədqiqi metodları; dəyərlərin, sosial yönəlişlərin tədqiqi metodları; emosional-motivasiya sahəsinin tədqiqi metodları; özünütənzimləmənin tədqiqi metodları; emosional vəziyyətin tədqiqi metodları.

5. İşdə, həmçinin özünəqəsdə cəhd hallarının məhkəmə-psixoloji ekspertiza icraatının metodoloji əsasları və metodiki təminatı barədə müəllif yanaşması nümayiş etdirilmiş və əsaslandırılmışdır. Belə ki, özünəqəsd və özünəqəsdə cəhd hallarının məhkəmə-psixoloji ekspertiza icraatının metodoloji bazasını və metodiki təminatının əsasını şəxsiyyətin idrak proseslərinin, emosional-iradi sferasının və fərdi-psixi xüsusiyyətlərinin müəyyənləşdirilməsinə aid olan psixoloji testlər təşkil edir. Bunlara "On söz metodikası", "Obraza görə hafizə metodikası", mütərəqqi

matrisalar, yəni "Raven testi", "Tematik apperseptiv testi" (TAT); "Dördüncü artıqdır metodikası", Sadə analogiyalar, Əhəmiyyətli əlamətlərin ayrılması, Anlayışların müqayisəsi və predmetlərin təsnifatı, Xarakterin rəngi ("Lüşer testi"); Saks və Levinin "Yarımçıq cümlələr" metodikası; Ayzenkin şəxsiyyət sorğusu (böyüklər üçün); 16 faktorlu Kettel testi, Rosenoveyq testi, Aaron T.Beck "Suiqəsdə meyl" şkalası və s. aiddir. Ekspert tədqiqatı zamanı bu və ya digər metodikalar ekspert-psixoloq tərəfindən ekspertiza qarşısında qoyulmuş suallara və işin materiallarında müayinə edilən şəxsi səciyyələndirən məlumatlara əsasən seçilir.

6. Özünəqəsd halları ilə bağlı məhkəmə-psixoloji ekspertizası artıq şəxsin özü həyatda olmadığı zaman keçirildiyindən, təqdim olunmuş iş materialları əsasında rəylərin nəticələri əsasən qəti deyil, ehtimal xarakteri daşıyır. Məhkəmə-psixoloji ekspertiza icraatı zamanı özünə qəsd edən haqqında bir sıra səciyyəvi məlumatların, o cümlədən onun şəxsiyyəti ilə bağlı informasiyanın, yaşayış və iş yeri üzrə xasiyyətnamələrin, tibbi arayışların və s. psixoloji təhlili həyata keçirilir. Şəxsin ölümündən əvvəlki dövrdə fərdi-psixi xüsusiyyətləri, hadisədən əvvəlki dövrdə keçirmiş olduğu emosional halları, emosional halın onun davranışına təsiri iş materiallarında olan şahid ifadələrinin və izahatlarının psixoloji analizi ilə həyata keçirilir. Özünəqəsd edən şəxsin yaxın sosial ətrafını təşkil edən şəxslərin - ailə üzvləri və qohumlarının, iş və ya məktəb yoldaşlarının, dostlarının, tanışlarının izahat və ifadələri əsasında "Asılı olmayan xarakteristikalar" metodundan istifadə edilərək, onun psixoloji obraz-portreti tərtib olunur və bu əsasda iş üçün əhəmiyyət kəsb edən hallar öyrənilir. "Asılı olmayan xarakteristikalar" metodunun tətbiqi əsasında ekspert-psixoloq özünəqəsd edən haqqında fikirləri ümumiləşdirərək psixoloji təhlil aparırır və psixoloji obraz portreti yaradır. Onun fərdi-psixi xüsusiyyətləri və hadisədən əvvəlki dövrdə keçirdiyi emosional-iradi sferası müəyyənləşdirilir və ekspert rəyi verilir. Özünəqəsd və özünəqəsdə cəhd halları ilə bağlı kontent analiz metodundan da istifadə olunur.

7. Özünü öldürmə faktı üzrə ölümdən sonra məhkəmə-psixoloji ekspertizası aşağıdakı mərhələlərdən ibarətdir: 1) cinayət işinin materiallarının analizi; 2) cinayət işi materialları, işə əlavə

edilmiş digər materiallar əsasında suisidentin fərdi-psixi xüsusiyyətlərinin analizi; 3) ölümdən əvvəlki şəraitlərin analizi, bu şəraitlərin suisident üçün əhəmiyyətinin, travmatikliyinin tədqiqi, zərərçəkmişin son gününün sistemli analizi; 4) suisiddən əvvəlki şəraitdə (vəziyyətdə) şəxsin psixi vəziyyətinin dinamikasının retrospektiv analizi, suisidal davranış zamanı, yəni intihar anında psixofizioloji vəziyyətin analizi; 5) suisidentin şəxsiyyətinin hüquqi əhəmiyyətli şəraitlə (vəziyyətlə) qarşılıqlı təsirinin analizi.

8. Müəllif tərəfindən özünəqəsd hallarının məhkəmə-psixoloji ekspertizasının təyin edilməsi və aparılmasının səciyyəvi xüsusiyyətləri müəyyən edilmişdir. Belə ki, özünəqəsd hallarının məhkəmə-psixoloji ekspertizasının cinayət işinin başlanması mərhələsində təyin edilməsi məqsədəuyğun deyildir, çünki bu mərhələdə ekspert tədqiqatının aparılması və rəyin verilməsi üçün kifayətedici materiallar olmur. Özünəqəsd hallarının məhkəmə-psixoloji ekspertizasının ibtidai istintaq gedişində kifayət qədər materiallar toplandıqdan, şahidlərin, digər məlumatlı şəxslərin dindirilməsi (ifadələrin alınması), hadisə yerinə baxış, axtarış, götürmə və digər istintaq hərəkətləri keçirildikdən sonra təyin edilməsi daha məqsədəuyğundur.

9. Ölümqabağı məktubların modallığının analizi onların müəllifinin şəxsiyyətinin, kompozisiyanın, psixoloji motivlərlə korrelyasiyası üzrə bu mətnləri aşağıdakı qruplar üzrə təsnifləşdirməyə imkan verir: müəllifin son iradəsini ifadə edən mətnlər; digər şəxslərin üzərindən suisidə görə məsuliyyəti götürməyə istiqamətlənmiş ifadələrin yer aldığı mətnlər; sosial davranışı mətn müəllifini özünüqəsdə gətirdiyi şəxsləri göstərən mətnlər; xüsusi iqtisadi şəraitlər və ya həyat şərtləri şəklində özünüqəsdi izah edən mətnlər; yaxınlara təsir vasitəsi kimi mətnlər; mənt "sübutlar"; mətn "əhdlər".

10. Müəllif tərəfindən özünəqəsdə cəhd hallarının kompleks məhkəmə-psixiatrik və məhkəmə-psixoloji ekspertizasının təyini və aparılması xüsusiyyətləri müəyyən edilmişdir. Belə ki, özünəqəsd və özünəqəsdə cəhd hallarının kompleks məhkəmə-psixiatrik və

məhkəmə-psixoloji ekspertizası zamanı ekspert-psixiatr özünəqəsddən əvvəl şəxsin psixi vəziyyətinin diaqnostikası, bu şəxsdə psixi pozğunluq və psixi xəstəlik aşkar edildikdə, aparıcı psixopatoloji sindromun onun klinik dinamikasının növünün, etimologiyasının, psixozədələyici və digər ekzogen və somatik təsirlərdən asılılığının diaqnostikasını həyata keçirir. Tibbi sənədlərin təhlili əsasında ekspert-psixiatr və psixoloq dezadaptasiyanın aktual vəziyyətinin kəskinliyini, zədələyici yaşanmaların xüsusiyyətlərini, suisidal fikirlərin və suisidal cəhdlərin xarakterini suisidentin onlara münasibətini qiymətləndirə bilər. Əldə olunmuş məlumatlar əsasında ekspert-psixiatr suisidal riskin tibbi amillərinə qiymət verir, özünəqəsddən əvvəl əsasən psixopatoloji tərəfdən psixi vəziyyəti səciyyələndirir. Ekspert-psixoloq isə suisidentin şəxsiyyətinin psixoloji vəziyyətinin struktur-dinamik xüsusiyyətlərinin və tipinin (frustrasiya, böhran) açılması, yaradıcılıq məhsulları və ölümqabağı qeydlərin, başa çatmamış suisidal cəhd halında psixodiaqnostik müayinənin nəticələri əsasında suisidönü dövrdə onun şüuru və yaşanmalarının məzmununu aydınlaşdırır. Bununla yanaşı, ekspert-psixoloq şəxsiyyətdaxili və şəxsiyyətlərarası münaqişələrin mahiyyətini, yaşanmaların məzmununu aşkar etməklə, şəxsiyyət və vəziyyətin qarşılıqlı təsir xarakterinin analizini, imkan olduqda, həmçinin, suisidentin formalaşan sərvət meyllərini, məqsəd və məna tipinin müəyyən edilməsini araşdırır. Alınmış məlumatlar əsasında ekspert-psixoloq özünəqəsdin məna və fərdi-psixoloji risk amillərinə qiymət verir, özünüqəsddən əvvəl psixi vəziyyəti əsasən şəxsiyyət-məna və motivasiya tərəfdən səciyyələndirir.

11. İşdə, həmçinin özünəqəsd hallarının kompleks məhkəmə psixoloji-linqvistik ekspertizasının səciyyəvi xüsusiyyətləri müəyyən edilmişdir. Belə ki, bu növ tədqiqatların gedişatında ekspert-psixoloq ekspertiza icraatına təqdim olunmuş informasiya materialının (mətnin) psixoloji istiqamətliliyini və ya şəxsin özünü öldürmə meylinin yaranmasına yönələn kommunikativ fəaliyyətin psixoloji istiqamətliliyini tədqiq edir. Belə istiqamətlənmə müəyyən şəxsdə özünü öldürməyə pozitiv psixoloji yönəlişin formalaşmasında ifadə

olunur. Belə yönəlişin komponentləri olaraq koqnitiv səviyyədə – özünü öldürmə üsulları haqqında məlumatlılıq, affektiv səviyyədə – çətin həyat şəraitindən çıxmanın məqbul üsulu kimi özünü öldürməyə pozitiv emosional münasibət, davranış səviyyəsində – özünü həyatdan məhrum etməyə hazır olma, bunu etmə niyyəti kimi halları göstərmək olar. Özünü öldürməyə marağın formalaşması, özünü həyatdan mərhum etməyə pozitiv emosional münasibətin və hazırlığın formalaşması hüquqda "özünü öldürməyə meylin yaranması", "özünü öldürməyə kömək etmə" kimi adanlandırılan hadisənin psixoloji əlamətləri hesab edilə bilərlər. Bu hallarda ekspert qarşısında suallar müxtəlif üsullarla formulə edilə bilər. Məsələn, material (mətn) özünü öldürməyə psixoloji yönəlişin, özünü həyatdan məhrum etməyə hazır olmanın formalaşmasına istiqamətlənmişdirmi? Psixoloji-linqvistik ekspertiza qarşısında qoyulan sual belə bir variantda da formulə edilə bilər: Materialda (mətndə) özünü öldürməyə meyilliliyin yaradılmasına yönələn psixoloji (psixoloji-linqvistik) əlamətlər varmı?

12. İşdə CM-in 125-ci maddəsinin yeni redaksiyada verilməsi, bu maddəyə "informasiya-telekommunikasiya şəbəkələrindən (o cümlədən İnternet şəbəkəsindən) istifadə etməklə törədildikdə" kimi yeni tövsifedici əlamətin, habelə "Qeyd" hissəsinin əlavə edilməsi təklifi irəli sürülür və əsaslandırılır.

13. İşdə CM-ə "Özünü öldürməyə təhrik etmə və ya özünü öldürməyə kömək etmə" adı altında yeni maddənin əlavə edilməsi təklifi irəli sürülür və əsaslandırılır. Belə ki, son illərdə yeniyetmələrin özlərini öldürmə hallarının, o cümlədən sosial şəbəkələrdə, İnternet saytlarında yerləşdirilən materialların təsiri altında suisidal davranışların əhəmiyyətli artımı müşahidə olunur. Bu problem aktiv şəkildə jurnalistlər, psixoloqlar, psixiatrlar və hüquqşünaslar tərəfindən müzakirə olunur. Qeyd edək ki, bu amili nəzərə alaraq, bir sıra ölkələrdə cinayət qanunvericiliyində (məsələn, RF, Qırğızıstan, Moldova, Belarus və s.) müəyyən dəyişikliklər edilmiş, məsələhətlər, göstərişlər, informasiya təqdim etməklə özünəqəsdin törədilməsinə təhrik və ya kömək etmək kimi əməllərə

görə cinayət məsuliyyəti nəzərdə tutan xüsusi cinayət tərkibləri təsbit edilmişdir. AR CM-də belə bir məzmunda yeni bir müstəqil maddənin nəzərdə tutulması və bu hallarda cinayət işinin daha tam, obyektiv və hərtərəfli araşdırılması məqsədilə məhkəmə-psixoloji ekspertizasının təyini və keçirilməsi zəruri hesab edilməlidir.

14. İşdə CPM-in 140-cı maddəsinə özünü öldürmə həddinə çatdırma ilə bağlı cinayətlərin istintaqında məhkəmə-psixoloji və məhkəmə-psixiatrik ekspertizalarının təyinin edilməsinin, intihar edənin vida məktubu qoyduğu hallarda isə məhkəmə-xətşünaslıq və məhkəmə-linvqistik ekspertizalarının təyininin məcburiliyi haqqında müddəanın əlavə edilməsi təklifi irəli sürülür və əsaslandırılır.

**Tədqiqatın elmi yeniliyi**. Azərbaycanda ilk dəfə olaraq sistemli-struktur yanaşma əsasında məhkəmə-psixoloji ekspertizasının və onun özünəqəsd hallarına dair məhkəmə-psixoloji ekspertizası növünün təyin edilməsi və aparılması ilə bağlı məsələlər kompleksi monoqrafik səviyyədə tədqiq edilmiş, özünəqəsd hallarının məhkəmə-psixoloji ekspertizasının predmeti, obyekti və vəzifələri müəyyən edilmiş, bu növ ekspertiza icraatı qarşısında qoyulan sualların dairəsi müəyyən edilərək sistemləşdirilmişdir. Özünəqəsd hallarının məhkəmə-psixoloji ekspertizasının metodoloji prinsipləri dəqiqləşdirilmiş və sistemləşdirilmiş, özünəqəsd və özünəqəsdə cəhd halında işlər üzrə ekspert tədqiqatının metodları sistemi müəyyənləşdirilmiş, bu metodların mahiyyət və məzmunu açılmışdır. Özünəqəsd və özünəqəsdə cəhd hallarının məhkəmə-psixoloji ekspertizasının təyin edilməsi və aparılmasının xüsusiyyətləri müəyyən olunmuş, özünəqəsd və özünəqəsdə cəhd hallarının kompleks məhkəmə psixoloji-psixiatrik və psixoloji-linqvistik ekspertizalarının aktual məsələləri tədqiq edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti irəli sürülən nəzəri müddəaların, metodoloji yanaşmaların, işlənib hazırlanmış metodikaların məhkəmə-ekspert təcrübəsinin ehtiyacları və sorğuları ilə qırılmaz surətdə bağlı olması, ümumən məhkəmə-psixoloji ekspertizasının, o cümlədən özünəqəsd

hallarının məhkəmə-psixoloji ekspertizanın imkanlarını və effektivliyini əhəmiyyətli dərəcədə artırması ilə şərtlənir.

Dissertasiyada formulə edilmiş müddəalar, konstruktiv elmi polemika üçün əsas olmaqla özünəqəsd hallarının məhkəmə-psixoloji ekspertizanın elmi-nəzəri və metodiki əsaslarının araşdırılması istiqamətində sonrakı tədqiqatları stimullaşdıra bilər.

Dissertasiyada öz əksini tapmış elmi-nəzəri müddəalar, formulə edilmiş nəticələr, təkliflər və tövsiyələr, özünəqəsd və özünəqəsdə cəhd hallarının məhkəmə-psixoloji ekspertizasının elmi-nəzəri və metodiki təminatının təkmilləşdirilməsi məqsədilə məhkəmə ekspertizası idarələrinin fəaliyyətində, "Məhkəmə-psixoloji ekspertizası" ixtisası üzrə ekspertlərin hazırlığı və yenidən hazırlığı, ixtisas səviyyəsinin yüksəldilməsinə yönələn kurslarda və bu kursların xüsusi proqramlarının işlənib hazırlanmasında istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi**. Elmi araşdırmanın ümumiləşdirilmiş nəticələri, müdafiəyə təqdim edilmiş müddəalar, aparılmış monoqrafik tədqiqat nəticəsində irəli sürülmüş əsas təklif və tövsiyələr Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən tövsiyə olunan elmi jurnallarda məqalələr formasında dərc edilmiş və elmi-praktiki konfransda məruzə edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzində yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqla həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işinin ümumi həcmi mətndəki boşluqlar, ədəbiyyat siyahısı və əlavələr istisna edilməklə, ümumilikdə 261619 işarədən ibarətdir. Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi isə mətndəki boşluqlar istisna edilməklə, aşağıdakı kimidir: giriş 32763, I fəsil 70717, II fəsil 50374, III fəsil 88079, nəticə 19686 işarədən ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Giriş hissədə mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın obyekti və predmeti, tədqiqatın məqsəd və vəzifələri, tədqiqat metodları, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi, tədqiqatın nəzəri və praktiki əhəmiyyəti, tədqiqatın aprobasiyası və tətbiqi, dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı, dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi göstərilmişdir.

Dissertasiya işi **"Özünəqəsd və özünəqəsdə cəhd hallarının məhkəmə-psixoloji ekspertizasının elmi-nəzəri əsasları"** adlanan **birinci fəsli** üç paraqrafdan ibarətdir.

Birinci fəslin **"Məhkəmə-psixoloji ekspertizasının yaranması və inkişaf tarixi"** adlanan birinci paraqrafında qeyd edilir ki, E.N. Xolopova, V.N. Kitayeva, M.İ.Enikeyev, A.R.Ratinov, F.S.Safuanov, M.M. Koçenov və digər tanınmış hüquqşünasların və psixoloqların əsərlərinə əsaslanaraq məhkəmə-psixoloji ekspertizası nəzəriyyəsinin təşəkkülü və inkişafının dörd dövrünü fərqləndirmək olar:

1) Məhkəmə-psixoloji ekspertizasının inkişafının erkən dövrü (XVIII əsrin əvvəlləri və XIX əsrin 70-ci illərinə qədər);

2) Bilavasitə məhkəmə-psixoloji ekspertizasının yaranması və bu sahədə ilk təcrübələrin aparıldığı dövr (XIX əsrin 80-ci illərindən XX əsrin 20-ci illərinə qədər);

3) Məhkəmə-psixoloji ekspertizasının inkişafının sovet dövrü (XX əsrin 20-ci illərindən 80-ci illərin sonuna qədər);

4) Məhkəmə-psixoloji ekspertizasının elmi-nəzəri və metodiki əsaslarının formalaşdırılması, onun qeyri-ənənəvi növlərinin yaranması ilə səciyyələnən müasir dövr (XX əsrin 90-cı illərindən bu günə qədər davam edən dövr).

Birinci fəslin **"Məhkəmə-psixoloji ekspertizasının predmeti və obyekti, ənənəvi və qeyri-ənənəvi növləri"** adlanan ikinci paraqrafında qeyd edilir ki, məhkəmə-psixoloji ekspertizasının predmeti ədalət mühakiməsi üçün əhəmiyyətli olub, insanın hüquqi əhəmiyyət kəsb edən şəraitdəki psixi fəaliyyətinə aid faktlar - psixi

fəaliyyətin cərəyan etməsi xüsusiyyətləri və qanunauyğunluqlarıdır. Bu mənada, ekspert-psixoloq tərəfindən xüsusi tədqiqat zamanı müayinə olunan iş üçün mühüm əhəmiyyət kəsb edən psixi prosesləri, fərdi-psixi xüsusiyyətləri və emosional-iradi sferası öyrənilir.

Məhkəmə-psixoloji ekspertizasının obyekti – hüquqi əhəmiyyət kəsb edən şərait və həmin şəraitdə insanın psixi xüsusiyyətlərini, onun komponentlərini, psixi fəaliyyətini və davranışını əks etdirən informasiyaların maddiləşmiş mənbələrinin kompleksindən ibarətdir. Burada informasiyaların maddiləşmiş mənbələri dedikdə, cinayət və mülki iş materialları, şəxsin həyat və fəaliyyətini əks etdirən materiallar, hüquqi əhəmiyyət kəsb edən şəraitdə davranışı, hərəkət və əməlləri, eksperimental-psixoloji tədqiqatın gedişatını əks etdirən protokollar və digər sənədlər nəzərdə tutulur .

Məhkəmə-istintaq və ekspert təcrübəsi, habelə xüsusi ədəbiyyatın öyrənilməsi məhkəmə-psixoloji ekspertizasının aşağıdakı növlər üzrə təsnifləşdirilməsinə əsas verir:

- iş üçün əhəmiyyətli halların qavranılmasının və onlar haqqında düzgün ifadə vermək qabiliyyətinin məhkəmə-psixoloji ekspertizası;
- şəxsin özünün və ona qarşı edilmiş hərəkətlərin mahiyyətini dərk etmək qabiliyyətinin məhkəmə-psixoloji ekspertizası;
- yetkinlik yaşına çatmayan təqsirləndirilən şəxslərin məhkəmə-psixoloji ekspertizası;
- psixi-emosional halların məhkəmə-psixoloji ekspertizası;
- suisidal halların məhkəmə-psixoloji ekspertizası;
- cinayətkar qrupun məhkəmə-psixoloji ekspertizası;
- yol-nəqliyyat hərəkətləri ilə əlaqədar məhkəmə-psixoloji ekspertizası;
- avtomatlaşdırılmış sistemlərin idarə edilməsi zamanı baş vermiş qəza hadisələrinin məhkəmə-psixoloji ekspertizası.

Son illərdə cinayətkar qruplaşmalarda liderin və qrupdaxili strukturun müəyyən olunması üzrə məhkəmə-ekspert psixoloji

tədqiqatları məhkəmə-psixoloji ekspertizasının qeyri-ənənəvi, yeni yaranan növlərinə aid edilə bilər.

Məhkəmə-psixoloji ekspertizasının yeni növlərinə həmçinin, psixoloji təsir və psixi zorakılıq üzrə ekspertizalar (dələduzluq faktı üzrə, qanunazidd hərəkətlərin törədilməsi zamanı psixi məcburetmə, ifadə verilərkən və digər istintaq hərəkətlərində psixoloji təsir və s.), obyektiv mürəkkəb vəziyyətlərdə müəyyən fəaliyyətə irəli sürülən tələblərə subyektin psixofizioloji xüsusiyyətlərinin uyğunluğu barədə ekspertizalar (ilk növbədə bu nəqliyyatda və istehsalatlarda qəzalarla bağlıdır), mənəvi zərərin müəyyən edilməsi ilə bağlı ekspertizalar aid edilə bilər.[4]

Birinci fəslin **"Özünəqəsd hallarının məhkəmə-psixoloji ekspertizasının predmeti və obyekti, vəzifələri, həll etdiyi məsələlər (suallar) dairəsi"** adlanan üçüncü paraqrafında qeyd edilir ki, özünəqəsd hallarının məhkəmə-psixoloji ekspertizası qiyabi məhkəmə-psixoloji ekspertiza növlərindən biri olmaqla cinayət prosesində ən mürəkkəb ekspertizalar qrupuna aiddir. Çünki bu növ ekspertizalar şəxsin bilavasitə müayinəsi aparılmadan, yalnız ölmüş şəxsi xarakterizə edən müxtəlif materiallar, əsasən də cinayət işinin materiallarının öyrənilməsi əsasında aparılır.

Suisidial hal, yəni özünəqəsd faktı üzrə ölümdən sonra məhkəmə-psixoloji ekspertizası sağ olarkən psixi sağlamlığı heç bir şübhə doğurmayan şəxslərə münasibətdə təyin olunur.

Özünəqəsd hallarının məhkəmə-psixoloji ekspertizası qarşısında qoyulan məsələlərin, vəzifələrin həlli üçün ekspertlərin əlində suisidentin, yəni özünü öldürmüş şəxsin emosional reaktivliyi, onun əhval ruhiyyəsinin davamlılığı, psixoloji stressə reaksiyasının tipləri, depressiv pozğunluqlara meylliliyi haqqında məlumatlar olmalıdır. Sonuncular suisidlərin səbəbləri sırasında birincilərdəndir. Bununla bağlı özünü öldürən şəxsin davranışı analiz edilməli, onun ölümqabağı davranışında stressə psixogen depressiv reaksiya

[4] Abdullayev N. Məhkəmə-psixoloji ekspertizasının predmeti və obyekti, ənənəvi və qeyri-ənənəvi növləri // – Bakı: Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri, – 2025. № 69, – s.104-109.

əlamətlərinin olub-olmaması aydınlaşdırılmalıdır. Belə reaksiyalara qəmginlik, qorxu və apatiya, narahatlıq, həyəcan, ümidsizlik, küskünlük və s. göstərilə bilər.

Özünəqəsd faktı üzrə məhkəmə-psixoloji ekspertizasının icrası zamanı ekspert özünəqəsd riskinin fərdi-psixoloji amillərinə qiymət verir, əsasən şəxsiyyət-məna, motivasiya tərəfindən özünəqəsddən əvvəlki psixi vəziyyəti xarakterizə edir. Ekspert-psixoloqun səlahiyyətinə münaqişəlilik dərəcəsinin və vəziyyətin psixotravmativliyinin, psixi təsirlərin kumulyasiya (toplanma) mexanizmlərinin, suisid tipinin qiymətləndirilməsi daxildir.

"Məhkəmə ekspertizası qarşısında qoyulan sualların nümunəvi siyahısı" vəsaitində göstərilir ki, məhkəmə-istintaq orqanları intihar hallarının, özünüqəsdlə bağlı olan hadisələrin araşdırılması zamanı məhkəmə-psixoloji ekspertizasını təyin edərkən ekspert-psixoloq qarşısında aşağıdakı sualları qoya bilərlər:

1) İntihar etmiş şəxsin fərdi-psixi xüsusiyyətləri hansılardır və bu xüsusiyyətlər onun özünü öldürməsində nesə təzahür etmişdir?;

2) İstintaq fərziyyələrinə görə özünü öldürmüş şəxsdə, ölümündən əvvəlki dövrdə hansı psixi-emosional hal olmuşdur və bu hal hansı amillərlə şərtlənmişdir?;

3) İntihar etmiş şəxsdə ekstremal psixi vəziyyətin (fizioloji affekt, stress, emosional gərginlik, frustasiya və s.) yaranma səbəbləri nədən ibarət olmuşdur?;

4) Təqsirləndirilənin hərəkətləri ilə (dəqiq göstərilməli: məs., zorlama, qəddarcasına münasibət və ya mütəmadi olaraq şəxsi ləyaqətinin alçaldılması və s.) zərərçəkmişin ölümündən əvvəlki dövrdə keçirmiş olduğu psixi-emosional hal arasında səbəbli nəticə əlaqəsi mövcuddurmu?[5]

---

[5] Abdullayev N. Özünəqəsd halları ilə bağlı keçirilən məhkəmə-psixoloji ekspertizasının predmeti və obyekti, vəzifələri, həll etdiyi məsələlər (suallar) dairəsi. Azərbaycan polisinin 100 illiyinə həsr olunmuş "Azərbaycan polisinin tarixi və inkişaf perspektivləri" mövzusunda Beynəlxalq elmi-praktik konfrans. Bakı 20.06.2018, səh.296-302.

Dissertasiyanın **"Özünəqəsd və özünəqəsdə cəhd hallarının məhkəmə-psixoloji ekspertiza icraatının metodologiyası və elmi-metodiki əsasları"** adlı ikinci fəsli iki paraqrafdan ibarətdir. **"Özünü öldürmə və özünü öldürməyə cəhd hallarının məhkəmə-psixoloji ekspertizasının metodoloji prinsipləri"** adlanan paraqrafında qeyd edilir ki, elmin prinsipləri elmin metodoloji əsaslarını ifadə edir. Klassik psixologiyanın prinsiplərindən fərqli olaraq müasir psixologiyanın yeni prinsipləri – determinizm prinsipi, şüur və fəaliyyətin vəhdəti prinsipi, psixikanın fəaliyyətdə inkişafı kimi prinsiplər formulə edilmiş, son illərdə daha da dəqiqləşdirilmiş və sözün əsl mənasında səmərəli tədqiqat strategiyasına çevrilmişdir. Psixologiyada bunlarla yanaşı bir sıra mühüm prinsiplər də işlənilmişdir ki, onların içərisində sistemlilik prinsipini xüsusi olaraq qeyd etmək olar.

Prosessual hərəkət kimi məhkəmə-psixoloji ekspertizasının aşağıdakı prinsiplərini ayırmaq olar:

- qanunçuluq prinsipi - ekspertizanın təşkili və icraatı məhkəmə ekspertizası fəaliyyətinin hüquqi əsasını təşkil edən normalara uyğun olaraq ciddi həyata keçirilməlidir;

- məhkəmə ekspertizası fəaliyyətinin həyata keçirilməsi zamanı insan və vətəndaş hüquq və azadlıqlarına (ədalət və humanizm) əməl olunması prinsipi - konstitusiya ilə nəzərdə tutulan hüquqlara riayət olunmasında və ilk növbədə şəxsi həyatın toxunulmazlığı, şərəf və ləyaqətin qorunması, ailə və şəxsi həyat sirrinin qorunması və s. ifadə olunur;

- obyektivlik prinsipi - ekspertdən təmsil etdiyi bilik sahəsinin müasir inkişaf səviyyəsinə uyğun olan elmi-metodiki və təcrübi əsasda tədqiqatları aparmaq və nəticələri formulə etmək tələbi deməkdir. Bu prinsip qərəzsizliyi və subyektivizmə yolverilməzliyi nəzərdə tutur;

- tədqiqatın hərtərəfliyi prinsipi - ekspertin sərəncamında tədqiqat üçün lazım olan bütün ilkin məlumatlar olmalı, ekspert bütün alternativləri nəzərə almalı və bütün ümumi və xüsusi ekspert fərziyyələrini və əks fərziyyələr spektrini əhatə etməli, tədqiqatın

əlamətləri və nəticələrini hərtərəfli üzə çıxarmalı və qiymətləndirilməlidir;

- tədqiqatın tamlığı prinsipi - ekspertin cavabları ekspertizanı təyin etmiş şəxsin və orqanın bütün suallarını əhatə etməli, barələrində suallar qoyulan bütün obyektlər tədqiq edilməli, tədqiqat və rəy vermək üçün zəruri olan bütün əlçatan metodlardan və vasitələrdən istifadə edilməklə tədqiqat aparılmalıdır.

**"Özünü öldürmə və özünü öldürməyə cəhd haqqında işlər üzrə ekspert tədqiqatının metodları və metodiki əsasları"** adlı paraqrafında göstərilir ki, özünüöldürmə halları ilə bağlı keçirilən məhkəmə-psixoloji ekspertizası zamanı şəxsin özü artıq həyatda olmadığından, yəni onunla psixoloji ekspertizanın keçirilməsi mümkün olmadığından təqdim olunmuş cinayət işi materialları əsasında rəy verilir. Həmin rəylər çox hallarda qəti deyil, ehtimal xarakteri daşıyır. Belə ki, cinayət işi və yaxud iş materiallarında şəxs haqqında bioqrafik göstəricilər, yəni mərhumun anadan olduğu vaxtdan hadisə olan dövrədək bütün məlumatları, yaşadığı və ya çalışdığı yerdən xasiyyətnamələr, qeydiyyatda olduğu yerdən tibbi arayışlar və s. iş materiallarında əksini tapmalıdır. Bununla yanaşı, özünəqəsd edən şəxsin ölümündən əvvəlki dövrdə fərdi-psixi xüsusiyyətlərini, hadisədən əvvəlki dövrdə davranış aktlarını və onların dinamikasını, keçirməsi mümkün olan emosional halları tədqiq etmək üçün təqdim olunmuş cinayət işi materiallarında, bu materiallarda əksini tapan şahidlərin izahat və ifadələrinin psixoloji cəhətdən təhlili hökmən vacib məsələdir. Özünəqəsd edən şəxsin yaxın və uzaq qohumlarının, dostlarının, tanışlarının, sinif yoldaşlarının, qrup yoldaşlarının, iş yoldaşlarının və s. izahat və ifadələri əsasında "Asılı olmayan xarakteristikalar" metodundan istifadə edilərək, mərhumun psixoloji obraz-portreti tərtib olunur və bu əsasda iş üçün əhəmiyyət kəsb edən hallar öyrənilir. "Asılı olmayan xarakteristikalar" metodunda, adından məlum olduğu kimi özünəqəsd edən şəxsin barəsində əksini tapan fikirlər fərqli olur, yəni mərhumun fərdi-psixi xüsusiyyətləri və şəxsiyyəti müxtəlif izahat və ifadələrdə müxtəlif cür təsvir olunur. Lakin, ekspert psixoloq tərəfindən mərhum haqqındakı fikirlər ümumiləşdirilərək, psixoloji təhlil aparılır və psixoloji obraz portreti yaradılır. Mərhumun fərdi-psixi xüsusiyyətləri və hadisədən əvvəlki dövrdə keçirdiyi emosional-iradi sferası müəyyənləşdirilir və ekspert rəyi verilir.

İşin **"Özünəqəsd və özünəqəsdə cəhd hallarının məhkəmə-psixoloji, kompleks psixoloji-psixiatrik və psixoloji-linqvistik ekspertiza icraatının təşkilati metodiki və prosessual xüsusiyyətləri"** adlanan üçüncü fəsli iki paraqrafdan ibarətdir. **"Özünəqəsd hallarının məhkəmə-psixoloji ekspertizasının təyini və aparılması xüsusiyyətləri: təşkilati-metodiki və taktiki-prosessual aspektlər"** adlı paraqrafında qeyd olunmuşdur ki, özünəqəsd hallarının məhkəmə-psixoloji ekspertizasının təyin edilməsi və aparılması bir sıra səciyyəvi xüsusiyyətlərlə xarakterizə olunur ki, onların sırasında da aşağıdakıları qeyd edə bilərik:

- özünəqəsd hallarının məhkəmə-psixoloji ekspertizası cinayət işinin başlanması mərhələsində təyin edilməsi məqsədəuyğun deyildir, çünki bu mərhələdə ekspert tədqiqatının aparılması və rəyin verilməsi üçün kifayətedici materiallar olmur;
- özünəqəsd hallarının məhkəmə-psixoloji ekspertizası aparılması ibtidai istintaq gedişatında kifayət qədər materiallar toplandıqdan, şahidlərin, digər məlumatlı şəxslərin dindirilməsi (ifadələrin alınması), hadisə yerinə baxış, axtarış və götürmə və digər istintaq hərəkətləri keçirildikdən sonra təyin edilərək aparılması daha məqsədəuyğun hesab edilməlidir;
- məhkəmə-istintaq və ekspert təcrübəsi özünəqəsd hallarının məhkəmə-psixoloji ekspertizası təyin edilərkən bir sıra hallarda ekspertiza təyin edilməsi haqqında qərarın (qərardadın) lazımi səviyyədə tərtib edilməməsi, onda işin fabulasının göstərilməməsi, ekspert qarşısında sualların düzgün formulə edilməməsi, ekspert qarşısında onun səlahiyyətinə aid olmayan və hüquqi xarakter daşıyan sualların qoyulması hallarına təsadüf edilir.

Ümumi taktiki qayda ondan ibarətdir ki, ekspertiza yalnız aşağıdakı hallarda təyin edilməli və keçirilməlidir:

1) həlli üçün xüsusi biliklər tələb edən suallar yaranmışdır;

2) ekspertin rəy verməsi üçün zəruri olan materiallar toplanmışdır.

CPM-də də bununla bağlı dəyişikliklər edilməli və ekspertizanın təyin edilməsinin zəruri olduğu halların dairəsini genişləndirmək məqsədilə CPM-nin 140-cı maddəsinə "özünəqəsd və ya özünəqəsdə cəhd hallarının araşdırılması" kimi müddəanı daxil etmək məqsədəuyğun hesab edilməlidir.

Bildirmək lazımdır ki, Cinayət Məcəlləsinin 125-ci maddəsi özünü öldürmə həddinə çatdırma əməlinə görə cinayət məsuliyyəti müəyyən edir. Həmin maddənin dispozisiyasında zərərçəkmiş şəxsin təqsirkardan maddi, xidməti və sair cəhətdən asılılğı əlaməti nəzərdə tutulsa da, zərərçəkmiş şəxsin təqsirkardan psixoloji asılılığı əlaməti xüsusi vurğulanmır. Bu hal təcrübədə müvafiq əməllərin tövsif edilməsi işini çətinləşdirir və ümumiyyətlə, maddədə nəzərdə tutulmuş "sair cəhətdən asılılıq" əlamətinin həddən artıq genişləndirici təfsiri üçün şərait yaradır. Bu səbəbdən hesab edirik ki, təcrübədə zərərçəkmiş şəxsin təqsirkardan maddi və xidməti asılılığı ilə yanaşı, daha çox rast gəlinən asılılıq növü – psixoloji asılılıq Cinayət Məcəlləsinin 125-ci maddəsinin dispozisiyasında xüsusi vurğulanmalı və təcrübədə əməlin tövsifi işini asanlaşdırmaq üçün psixoloji asılılıq termininin leqal tərifi Cinayət Məcəlləsinin 125-ci maddəsinin "Qeyd" hissəsində təsbit edilməlidir.

"Qeyd: Bu maddədə "psixoloji asılılıq" dedikdə, öz mənafeyi üçün başqasına psixoloji təsir göstərməklə özündən asılı vəziyyətdə saxlamaq, zərərçəkmişə psixoloji basqı və şiddət göstərmək, psixoloji təzyiqlər etmək (zərərçəkmiş şəxsi qorxu və şantaj altında saxlamaq, barəsində rüsvayedici məlumatları yaymaqla hədələmək, zərərçəkmişi ekstremal psixi vəziyyətə - stress və depressiv hala salmaq) başa düşülür".

Məhkəmə-psixoloji ekspertizası çərçivəsində həll edilən məsələlər və sualların dairəsi ilə bağlı müstəntiqlərin, hakimlərin kifayət qədər məlumatlı olmaması nəzərə alınmaqla tövsiyə olunur ki, mürəkkəb vəziyyətlərdə müstəntiqlər ilkin olaraq ekspertiza idarəsinin ekspertləri tərəfindən həll edilməsi mümkün olan sualların dairəsi, habelə aparılacaq tədqiqat üçün zəruri olan materialların xarakteri, məzmunu, həcmi barədə ekspertiza idarəsinin rəhbəri ilə müzakirə etsinlər.

**"Özünü öldürmə hallarının kompleks məhkəmə psixoloji-psixiatrik və psixoloji-linqvistik ekspertizalarının aktual məsələləri"** adlanan üçüncü fəslin ikinci paraqrafında göstərilmişdir ki, kompleks məhkəmə-psixiatrik və məhkəmə-psixoloji ekspertizasının aparılması zamanı ekspert-psixiatr ölümündən yaxud müəyyən edilmiş özünəqəsddən əvvəl şəxsin psixi vəziyyətinin diaqnostikası, bu şəxsdə psixi pozğunluq aşkar edildikdə aparıcı psixopatoloji sindromun onun klinik dinamikasının növünün,

etimologiyasının, psixozədələyici və digər ekzogen (sərxoşluq) və somatik (xəstəlik yaxud onun ağırlaşması) təsirlərdən asılılığın diaqnostikasını araşdırır. Əldə olunmuş məlumatlar əsasında ekspert-psixiatr suisidal riskin tibbi amillərinə qiymət verir, özünəqəsddən əvvəl əsasən psixopatoloji tərəfdən psixi vəziyyəti səciyyələndirir.

Ekspert-psixoloq isə suisidentin (şübhəli bilinən, yaxud müəyyən edilmiş) şəxsiyyətinin psixoloji vəziyyətinin struktur-dinamik xüsusiyyətlərinin və tipinin (frustrasiya, böhran) açılması, yaradıcılıq məhsulları və ölümqabağı qeydlərin, başa çatmamış suisidal cəhd halında psixodiaqnostik müayinənin nətisələri əsasında suisidönü dövrdə onun şüuru və yaşantılarının məzmununu aydınlaşdırır. Alınmış məlumatlar əsasında ekspert-psixoloq özünəqəsdin məna və fərdi-psixoloji risk amillərinə qiymət verir, özünüqəsddən əvvəl psixi vəziyyəti əsasən şəxsiyyət-məna, motivasiya tərəfdən səciyyələndirir.

Birgə ekspert səlahiyyətinə isə vəziyyətin konfliktogenlik və psixozədələyicilik dərəcəsinin, psixogen təsirlərin kumulyasiya mexanizmlərinin, suisidönü dezadaptasiya vəziyyətinin xüsusiyyətlərinin, suisidönü dövrdə şüur və yaşantıların məzmununun öyrənilməsi daxildir. Bununla yanaşı müştərək səlahiyyətə suisidal davranışın daxili fenomenlərinin, suisidin tipinin, səciyyəvi risk amillərinin, eləcə də suisidal davranışın səbəb əlaqələrinin qiymətləndirilməsi də aiddir.[6]

İnformasion materialların istiqamətliliyinin psixoloji-linqvistik ekspertizasının hüquqi əhəmiyyəti Cinayət Məcəlləsinin uyğun norması ilə məsuliyyət nəzərdə tutulan əməllərində tövsifindən ibarət olacaqdır. Bu halda hüquqi anlayışlar qismində "məsləhətlər göstərilir, informasiya təqdim etmə ilə özünü öldürməyə kömək etmə" və "özünü öldürmənin törədilməsi üsulları haqqında informasiyanı yayma və ya özünüöldürmənin törədilməsinə çağırışlar yolu ilə özünü öldürmə niyyətinin yaranmasına istiqamətlənən fəaliyyətin təşkili" anlayışları çıxış edir. Məsləhət,

[6] Abdullayev N. Suisidal və suisidə cəhd hallarında kompleks məhkəmə-psixiatrik və məhkəmə-psixoloji ekspertizasının həll etdiyi məsələlər. "Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri", Bakı 2017, səh.208-213.

göstəriş, məlumatlandırma, çağırış tədqiqat zamanı linqvistik metodlarla müəyyən olunan nitq və kommunikativ fəaliyyət aspektləri, o cümlədən nitq aktlarıdır.

Aydındır ki, kömək etmə, təhrik və sövq etmə eksplisit, açıq-aydın ola bilər, həmçinin gizli, pərdəli, psixoloji vasitələrlə, birbaşa çağırışlar olmadan informasiyanın ötürülməsinin xüsusi üsulu, özünü öldürməyə müəyyən emosional-məna münasibətinin formalaşması ilə, bunu həyatdan məhrum etmək və ya ölümlə oynamaq marağını, fikirlərini, sonra isə arzu və niyyətinin təşəbbüskarı olmasında ifadə oluna bilər.

Fikrimizcə, bu hallarda ekspert-psixoloji anlayışlar qismində "informasiya materialının (mətnin) psixoloji istiqamətliliyi və ya şəxsin (ünvanın) özünü öldürmə meylinin yaranmasına yönələn kommunikativ fəaliyyətin psixoloji istiqamətliliyi" çıxış edir. Belə istiqamətlənmə müəyyən şəxsdə özünü öldürməyə pozitiv psixoloji yönəlişin formalaşmasında ifadə olunur. Özünəqəsdə marağın formalaşması, özünü həyatdan mərhum etməyə pozitiv emosional-məna münasibətin və hazırlığın formalaşması hüquqda "özünü öldürməyə meylin yaranması", "özünü öldürməyə kömək etmə" kimi adanlandırılan hadisənin psixoloji əlamətləri hesab edilə bilərlər.

Ekspert qarşısında suallar müxtəlif üsullarla formulə edilə bilər. Onlardan birincisi, material özünü öldürməyə psixoloji yönəlişin, özünü həyatdan məhrum etməyə hazır olmanın formalaşmasına istiqamətlənmişdirmi? Psixoloji-linqvistik ekspertizada nifrət salma, zorakılıq və qəddarlıq təbliğ etmə və sair kimi fenomenlərin linqvistik və psixoloji aspektlərin öz əksini tapan sualların formulə edilməsi ümumqəbul olunmuşdur. Ona görə də sualın ikinci variantı olaraq göstərilə bilər ki, materialda özünü öldürməyə meyilliliyin yaradılmasına yönələn psixoloji (psixoloji-linqvistik) əlamətlər varmı?

Aydındır ki, bütün bunlar yalnız diskussion xarakter daşıyan ümumi mülahizələrdir. Hesab edirik ki, son illərdə ictimai təhlükəliliyi əhəmiyyətli dərəcədə yüksələn bu əməllərlə mübarizənin gücləndirilməsi məqsədilə uyğun normaların CM-nə də daxil edilməsi aktuallaşacaqdır. Məhz bunu nəzərə alaraq tərəfimdən özünü öldürməyə təhrik etmə və özünü öldürmənin törədilməsində

kömək göstərmə haqqında mümkün işlər üzrə kompleks məhkəmə psixoloji-linqvistik ekspertizaların aparılmasının prinsipcə mümkünlüyünü göstərmək üçün müəyyən mülahizələr səsləndirilmişdir.

Nəticə hissəsində əsas nəzəri ümumiləşdirmələr, 2020 – 2024-cü illər üzrə statistik məlumatların təhlili və təkliflər sistemləşdirilmiş şəkildə təqdim edilmişdir.

Əlavə hissəsində Məhkəmə Ekspertizası Mərkəzinin Psixoloji ekspertiza şöbəsinin əməkdaşları tərəfindən 2020 – 2025-ci illərdə yerinə yetirilmiş ayrı-ayrı istiqamətlər üzrə ekspertizaların sayı, 2020 – 2025-ci illərdə özünü öldürmüş və özünü öldürməyə cəhd etmiş şəxslərin sayı cədvəllər şəklində göstərilmiş, Azərbaycanda 2008 – 2020-ci illərdə özünəqəsd və özünəqəsdə cəhd etmiş şəxslərin statistik rəqəmləri və artma-azalma dinamikası diaqramlar şəklində verilmiş, özünəqəsd halları ilə bağlı keçirilən məhkəmə-psixoloji ekspertiza təcrübəsində rast gəlinən son məktublardan (vida məktublarından) nümunələr çəkilmişdir.

**Dissertasiyanın mövzusu üzrə müəllifin aşağıdakı elmi əsərləri nəşr olunmuşdur:**

1. Özünəqəsd hallarının aradan qaldırılması üzrə profilaktik tövsiyyələr adlı metodik vəsaitin iştirakçısı. Bakı 2013, s.63.

2. Suisidal və suisidə cəhd hallarında kompleks məhkəmə-psixiatrik və məhkəmə-psixoloji ekspertizasının bəzi məsələləri. "Türkiyə-Azərbaycan Beynəlxalq Məhkəmə Tibbi Ekspertiza və Patologiya Konqresi". Bakı 13-16 oktyabr 2016. Poster, səh 44.

3. Методологические принципы судебно-психологической экспертизы. Материалы Международной научно-практической конференции «Восток-Запад: партнерство в судебной экспертизе. Актуальные вопросы теории и практики судебной экспертизы» (г.Алматы, 27 октября 2016 г.) с.18-21.

4. Özünü öldürməyə cəhd edən şəxslərin suisidal davranışının psixoloji cəhətdən qiymətləndirilməsi. "Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri". Bakı 2016, səh.167-172.

5. Suisidal və suisidə cəhd hallarında kompleks məhkəmə-psixiatrik və məhkəmə-psixoloji ekspertizasının həll etdiyi məsələlər. "Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri", Bakı 2017, səh.208-213.

6. Özünəqəsd halları ilə bağlı keçirilən məhkəmə-psixoloji ekspertizasının predmeti və obyekti, vəzifələri, həll etdiyi məsələlər (suallar) dairəsi. Azərbaycan polisinin 100 illiyinə həsr olunmuş "Azərbaycan polisinin tarixi və inkişaf perspektivləri" mövzusunda Beynəlxalq elmi-praktik konfrans, Bakı 20.06.2018, səh.296-302.

7. Məhkəmə-psixoloji ekspertizasının yaranması və inkişaf tarixi. "Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri", Bakı 2018, səh.196-208.

8. Özünüöldürmə və özünüöldürməyə cəhd bəşəriyyətin qlobal problemi kimi. "Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri", Bakı 2019, səh.120-124.

9. Методы и методические основы экспертного исследования по делам о самоубийствах и попытках

самоубийства. "Sud ekspertiza sohasını rıvojlantırıshnıng zamonavıy usulları va ustuvor yonalıshları" mövzusunda Beynəlxalq elmi konfrans. Toshkent - 22-23 sentyabr 2023. səh.244-255.

10. Suisidal və suisidə cəhd hallarında kompleks məhkəmə psixoloji-psixiatrik ekspertizası. "Qanun" jurnalı, Bakı 2024, səh. 83-90.

11. Features of determining and conducting forensic psychological examination of suicide cases: organizational-methodical and tactical procedural aspects "Свропейські перспективи. 2024. №2", səh.244-249.

12. Özünəqəsd və özünəqəsd cəhdləri ilə bağlı məhkəmə psixoloji-linqvistik ekspertiza."Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri", Bakı 2024.№68, səh.106-111.

13. Məhkəmə-psixoloji ekspertizasının predmeti və obyekti, ənənəvi və qeyri-ənənəvi növləri. "Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri", Bakı 2025.№69, səh.104-109.



Dissertasiyanın müdafiəsi 05 iyun 2026-cı il tarixində, saat 14:00-da Milli Aviasiya Akademiyası nəzdində fəaliyyət göstərən ED 2.45 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı şəhəri, Mərdəkan pr. 30.

Dissertasiya işi ilə Milli Aviasiya Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Milli Aviasiya Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 04 may 2026-cı il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 01.05.2026

Kağızın formatı: A5 (210 x 148 mm)

Həcm: 47 646 işarə

Tiraj: 100